# Vaqif poeziya günləri bərpa olundu...

## *Molla Pənah Vaqifin anadan olmasının 290 illiyi ilə əlaqədar tədbirlər keçirilir*

***"Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra klassik irsə münasibət, tarixi-mədəni dəyərlərimizə qayğı böyük vüsət aldı. Ulu öndər, ümummilli lider Heydər Əliyevin bu sahədəki xidmətləri isə əvəzedilməzdir. Təsadüfi deyil ki, hələ keçmiş Sovetlər Birliyi zamanında Azərbaycana rəhbərlik etmiş ulu öndər milli mədəniyyətimizin, ədəbiyyatımızın, elmimizin inkişafı və dünyaya tanıdılması sahəsində indiyədək heç kəsin görmədiyi işlər görmüş, böyük layihələr həyata keçirmişdir".***





Bu fikirlər ötən gün Mədəniyyət və Turizm Nazirliyinin rəhbərliyi və təşkilatçılığı ilə Qazaxda keçirilən böyük Azərbaycan şairi, ictimai xadim, siyasətçi və diplomat Molla Pənah Vaqifin xatirəsinə həsr olunmuş mərasimdə səsləndi. Şuşa şəhər Mədəniyyət və Turizm İdarəsinin müdiri Zahid Abbasov "Mədəniyyət" qəzetinə verdiyi müsahibəsində o qədər də uzaq olmayan tariximizin ən parlaq və yaddaqalan səhifələrindən birini xatırladı...

- Qarabağ, bu torpaqdakı əvəzsiz mədəniyyət abidələrimiz haqqında danışmaq hər bir soydaşımız üçün çox çətin və ağrılıdır. Artıq 20 ilə yaxındır ki, bir sıra abidələrimiz kimi, Vaqifin Şuşadakı məqbərəsini də ziyarət etmək mümkünsüz olub. Amma xatirələr sərhəd bilmir... Böyük şairin məqbərəsinin açıldığı o gün də çoxdan xatirəyə çevrilib. İndi o çağları necə xatırlayırsınız?

- 25 il bundan əvvəl - 1982-ci ildə Şuşada Vaqifin məqbrəsinin inşası məhz ulu öndər Heydər Əliyevin klassik irsə olan qayğısının nəticəsi idi. O günləri, xüsusən məqbərənin təntənəli açılışını isə ömrüm boyu unuda bilmərəm.

Yaxşı yadımdadır, 1982-ci il yanvarın 14-ü idi. Şuşaya möhkəm qușbaşı qar yağırdı. Yollar-rizlər bağlanmışdı. Lakin bütün bu çətinliklərə baxmayaraq, ulu öndər özü məqbərənin təntənəli açılışına gəlmişdi. Bu onun Şuşaya həm də ilk gəlişi idi. Onu da qeyd edim ki, o vaxt şəhərə girəcəkdə rəhbərin olduğu və onu müşayiət edən maşınların irəliləməsi çətinləşdi. Bunu görən Şuşa camaatı maşını şəhərə əllərində aparmaq istəsələr də, ulu öndər qəti etirazını bildirdi. O üzünü adamlara tutaraq "Məqbərəyə qədər ayağımızla gedəcəyik" dedi. O, nə yağan qara, nə də yolun uzaqlığına əhəmiyyət vermədən təqribən 4-5 kilometr yolu paypiyada qət etdi...

Məqbərənin təntənəli açılış mərasimi olduqca izdihamlı keçdi. Heydər Əliyev elə oradaca elan etdi ki, bu ildən başlayaraq "Vaqif poeziya günləri" keçirilsin və şairin doğulduğu Qazaxda başlanan tədbir Şuşada yekunlaşsın. Yeri gəlmişkən, onu da qeyd edim ki, Vaqifin hündürlüyü 35 metr olan mavzoleyi Avropada ən yüksək məqbərədir.

- Yəqin ki, ilk poeziya bayramındakı iştirakınızı da unutmamısınız?

- Bəli, elə həmin il iyulun 29-da ulu öndər "Vaqif poeziya bayramında" iştirak etmək üçün ikinci dəfə Şuşaya gəldi. Tale elə gətirdi ki, mən həmin vaxt ulu öndərlə yaxın ünsiyyətdə oldum, onun məsləhət və tövsiyələrindən bəhrələndim. O zamandan məlum hadisələr baş verənə kimi davam edən "Vaqif poeziya günləri"ndə Azərbaycanın bütün tanınmış sənət adamları, yazıçıları, şairləri, poeziyasevərləri böyük həvəslə iştirak edirdilər. Sonra da qonaqlar məşhur Cıdır düzünə enirdilər, bu diyarın gözəl təbiətindən ilham alırdılar. Təəssüflər olsun ki, artıq 20 ilə yaxındır, biz Şuşaya, Vaqifin məqbərəsinin ziyarətinə gedə bilmirik...

- Təbii ki, o vaxtdan bəri "Vaqif poeziya günləri"nin keçirilməməsi də ürəklərdə qübara dönüb.

- Bəli, artıq 20 ilə yaxındır ki, əsasını ulu öndər Heydər Əliyevin qoyduğu bu bayramı keçirə bilmirik. Ancaq srağagün şairin Qazaxda keçirilən xatirə mərasimində "Vaqif poeziya günləri"nin bərpa olunması qərara alındı. Bu işdə mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin xidməti xüsusilə qeyd olunmalıdır.

- Yəqin ki, Şuşada və Xankəndində rəhbər vəzifələrdə çalışdığınız dövrlərdə həm də bədnam qonşularımızın milli mədəniyyətimizə, tariximizə, ədəbiyyatımıza olan üzdəniraq və düşmən münasibətinin şahidi olmusunuz? Sizcə, bu düşmənçilik haradan qaynaqlanır?

- Mən uzun illər ermənilərin əhatəsində çalışmış, rəhbər vəzifələrdə işləmişəm. Həyat təcrübəmdən və şəxsi müşahidələrimdən yaxşı bilirəm ki, ermənilər həmişə kimlərinsə əlbuyruqçusu olublar. Bizim milli-mədəni dəyərlərimiz, tariximiz, ədəbiyyatımız onlarınkından qat-qat zəngin olub. Onların nəyi varsa, tarix boyu bizdən oğurlayıblar. Elə indi də bu üzdəniraq əməllərini davam etdirirlər.

- Yəqin ki, işğal olunmuş torpaqlardakı digər milli abidələrimiz kimi, Vaqifin məqbərəsi də erməni vandalizminin təsirindən kənarda qalmayıb...

- Bəli, digər milli-tarixi abidələrimiz kimi, böyük şairimiz Vaqifin məqbərəsi də erməni vandalizminin qurbanına çevrilib (Söhbətin bu məqamında müsahibim qara cildli iri bir albom gətirib vərəqləyir və oradakı foto-şəkilləri göstərir). Bu şəkillərə baxın və özünüz müqayisə edin- bu tərəfdə məqbərənin əvvəlki təsviridir, onun yanındakı fotoda isə bu günkü dağıdılmış və bərbad vəziyyətdəki şəklini görürsünüz.

- Bəs Beynəlxalq təşkilatlar və Avropa ölkələrinin bu diyara tez-tez təşrif gətirən nümayəndələri bütün bunları görmürlərmi?

- Əslində bütün bunlar onların gözləri qarşısında baş verir... Amma təəssüflər olsun ki, özlərini mədəni adlandıran ölkələrin nümayəndələri də bizim milli mədəniyyətimizin ermənilər tərəfindən dağıdılmasına soyuqqanlı yanaşırlar. Bütün bunlara baxmayaraq, biz öz işimizi görürük.

- Yəqin ki, böyük şair Molla Pənah Vaqifin 290 illiyi ilə bağlı digər tədbirlərin də şahidi olacağıq.

***- Bəli, bu il dekabrın 13-də Rəşid Behbudov adına Mahnı Teatrında Molla Pənah Vaqifin anadan olmasının 290 illiyi münasibətilə təntənəli mərasim keçiriləcək.***

*Söhbəti qələmə aldı:*
*Cəlal Tağıyev*